DOI: https://doi.org/10.36719/2663-4619/118/138-143

**Saleh Nağıyev**
Bakı Dövlət Univeristeti
https://orcid.org/0000-0002-5610-5851
naqiyevsaleh@mail.ru
**İlahə Əliyeva**
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0006-1442-755X
ilaheliyeva998@mail.ru

# Abşeron-Xızı iqtisadi rayonunda kənd təsərrüfatının ərazi üzrə təşkili

## Xülasə

Tədqiqat işində Abşeron-Xızı iqtisadi rayonunda kənd təsərrüfatının ərazi üzrə təşkili, o cümlədən bu ərazilərdə kənd təsərrüfatının inkişaf perspektivləri təhlil edilmişdir. Region üzrə ümumi araşdırmalar nəticəsində əldə olunan məlumatlara əsasən deyə bilərik ki, ərazidə kənd təsərrüfatı kəndyanı sahələrdə daha yaxşı inkişaf etmiş, şəhərlərdə isə qismən formalaşmışdır. Regionda kənd təsərrüfatının ümumi inkişafı haqqında məsələlərə aydınlıq gətirilmiş, tövsiyyələr verilmişdir.

Məqalədə tədqiqat aparılan dövr ərzində (1989-2023-cü illər) iqtisadi rayonda kənd təsərrüfatına dair proseslər öyrənilmiş, onların iqtisadi inkişafa təsiri araşdırılmışdır. Həmçinin Abşeron-Xızı iqtisadi rayonunun kənd təsərrüfatına aid göstəriciləri ümumi ölkə miqyasında olan göstəricilərlə müqayisəli şəkildə təhlil olunmuş və tədqiqat nəticəsində aşkar olunan problemlərin həlli yolları əsaslandırılmışdır.

***Açar sözlər:*** *kənd təsərrüfatı, əkinçilik, heyvandarlıq, bağçılıq, tərəvəzçilik, meyvəçilik, çiçəkçilik, üzümçülük, dekorativ bitkiçilik, diversifikasiya, suvarma sistemləri*

**Saleh Naghiyev**
Baku State University
https://orcid.org/0000-0002-5610-5851
naqiyevsaleh@mail.ru
**Ilaha Aliyeva**
Baku State University
https://orcid.org/0009-0006-1442-755X
ilaheliyeva998@mail.ru

# Territorial Organization of Agriculture in the Absheron–Khizi Economic Region

## Abstract

The article provides a comprehensive analysis of the agricultural potential of the Absheron-Khizi economic region and the territorial organization of agriculture within this area. During the research, the region's soil and climatic conditions, employment indicators, types of agricultural products and production geography were examined and the existing opportunities and constraints in the sector were evaluated on a scientific basis. It was determined that the region is predominantly specialized in crop production, animal husbandry, horticulture, vegetable farming, and greenhouse agriculture, with clear trends toward specialization in these areas. The development of irrigation systems, efficient use of land resources, and application of modern agricultural technologies are identified as key factors in the geographical organization of agriculture. The article also highlights that the proper spatial distribution of agricultural sectors within the framework of territorial-economic planning holds strategic importance for ensuring sustainable regional development.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

***Keywords:*** *agriculture, farming, animal husbandry, horticulture, vegetable growing, fruit growing, floriculture, viticulture, ornamental plant growing, diversification, irrigation systems*

## Giriş

Azərbaycanın regional inkişaf strategiyasında iqtisadi rayonların spesifik potensiallarının düzgün qiymətləndirilməsi və onlardan səmərəli istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan, Abşeron-Xızı iqtisadi rayonu özünün əlverişli coğrafi mövqeyi, müxtəlif təbii resursları və kənd təsərrüfatı üçün uyğun iqlim şəraiti ilə diqqət çəkir. Regionun kənd təsərrüfatı sahəsindəki potensialının araşdırılması və ərazi üzrə təşkilinin təhlili, həm milli ərzaq təhlükəsizliyinin təmin olunması, həm də dayanıqlı kənd inkişafının reallaşdırılması baxımından aktualdır.

Abşeron-Xızı iqtisadi rayonuna Sumqayıt şəhəri, Abşeron və Xızı inzibati rayonları daxildir. Ümumi sahəsi 3,73 min km² olan bu region, ölkə ərazisinin 4,3%-ni əhatə edir və əhalinin sıxlığı baxımından yüksək göstəricilərə malikdir. Əhalinin sayı 876,5 min nəfər (1 yanvar, 2024-cü il), orta sıxlığı isə hər km²-ə 225 nəfər təşkil edir . Bu göstəricilər, kənd təsərrüfatının şəhər ətrafı təsərrüfat kompleksləri şəklində inkişaf etdirilməsinin vacibliyini göstərir (Azərbaycan Milli Ensiklopediyası, 2009).

2023-cü ildə Abşeron rayonunda ümumi məhsul buraxılışı 2 milyard 620 milyon 167,2 min manat təşkil etmişdir ki, bunun 11,9%-i kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrinin payına düşür. Bu, regionun kənd təsərrüfatı sahəsindəki iqtisadi əhəmiyyətini bir daha təsdiqləyir. Həmin il, ümumilikdə 1 532,9 hektar sahədə bitkiçilik məhsulları əkilmişdir ki, bu da əvvəlki ilin göstəricisindən 325,4 hektar çoxdur. Əkin sahələrinin 33,6%-i, yəni 515 hektarı payızlıq taxıl bitkilərinin, əsasən buğda və arpanın əkininə ayrılmışdır. Bu sahələrdən 458,3 ton taxıl istehsal olunmuşdur.

Ət istehsalı baxımından da Abşeron rayonu ölkə üzrə ön sıralarda yer alır. 2023-cü ildə rayonda 10 361 ton ət istehsal olunmuşdur ki, bu da ölkə üzrə ümumi ət istehsalının əhəmiyyətli bir hissəsini təşkil edir. Bu göstəricilər, regionun heyvandarlıq sahəsindəki potensialını və bu sahənin inkişaf etdirilməsinin vacibliyini ortaya qoyur (Azərbaycan Respublikası Abşeron Rayon İcra Hakimiyyəti, 2007–2019).

Kənd təsərrüfatının ərazi üzrə təşkili, yalnız məhsuldarlığın artırılması ilə məhdudlaşmır. Eyni zamanda, torpaq resurslarının səmərəli istifadəsi, suvarma sistemlərinin təkmilləşdirilməsi, kənd infrastrukturunun inkişafı və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi kimi mühüm məsələləri əhatə edir. Abşeron-Xızı iqtisadi rayonunda bu sahələrin hər birinin inkişaf etdirilməsi, regionun ümumi iqtisadi potensialının artırılmasına və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasına xidmət edir.

**Tədqiqat**

Məqalədə, Abşeron-Xızı iqtisadi rayonunda kənd təsərrüfatının ərazi üzrə təşkili təhlil edilmiş, mövcud potensialı və problemləri müəyyənləşdirilmiş və inkişaf perspektivlərinə dair tövsiyələr irəli sürülmüşdür. Bu çərçivədə, regionun coğrafi, iqtisadi və sosial xüsusiyyətləri nəzərə alınaraq, kənd təsərrüfatının səmərəli təşkili yolları araşdırılmış və dayanıqlı inkişaf strategiyalarının formalaşdırılması üçün əsaslar təqdim olunmuşdur (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2024).

**Material və metod**. Azərbaycanda kənd təsərrüfatının formalaşması, ərazi üzrə təşkili və onlara təsir edən digər coğrafi amilləri Fərman Quliyev, Vüsal Qasımlı, Əlövsət Quliyev, Yaqut Əhmədov və başqa alimlər öyrənmişdir.

Tədqiqatın statistik əsasını 1999, 2009 və 2019-cu illərin siyahıya alma materialları və 2020-2023-cü illərin statistik göstəriciləri təşkil etmişdir. Bu məqsədə nail olmaq üçün müqayisəli təhlil, sistem-struktur, tarixi-coğrafi təhlil, statistik tədqiqat metodlarından istifadə edilmişdir. İşi həyata keçirmək üçün həm ölkə üzrə, həm də region üzrə statistik məlumatlar sistemləşdirilmiş, strukturlaşdırılmış və müqayisəli şəkildə təhlil edilmişdir (Azərbaycan Respublikasının Coğrafiyası, 2015).

**Təhlil və müzakirə**. Abşeron-Xızı iqtisadi rayonu əlverişli təbii-iqlim şəraiti və digər spesifik xüsusiyyətləri ilə seçilərək kənd təsərrüfatının inkişafı baxımından mühüm üstünlüklərə malikdir. Bu iqtisadi rayonun müxtəlif inzibati-ərazi vahidlərində kənd təsərrüfatının inkişaf meyillərini təhlil etməzdən əvvəl, aşağıda təqdim olunan cədvəl vasitəsilə 2015–2023-cü illər ərzində Abşeron-Xızı iqtisadi rayonunda kənd təsərrüfatı məhsullarının istehsalına dair fiziki həcm indeksinin dinamikasına nəzər salmaq lazımdır.

Abşeron-Xızı iqtisadi rayonuna daxil olan Xızı inzibati rayonu kənd təsərrüfatı sahəsində yüksək potensiala malik ərazilərdən biri kimi fərqlənir. Regionun əlverişli coğrafi mövqeyi, torpaq və iqlim şəraiti kənd təsərrüfatının davamlı inkişafı üçün mühüm baza yaradır. Xüsusilə əkinçilik sahəsində məhsuldarlığı şərtləndirən torpaq ehtiyatları keyfiyyət baxımından üstün hesab olunur. Eyni zamanda, bölgənin iqlim şəraiti də kənd təsərrüfatı fəaliyyətləri üçün uyğunluq nümayiş etdirir.

Rayon ərazisinin əsasən çökəklik və düzənlik relyefə malik olması əkinçiliyin genişlənməsinə şərait yaradır. Bu istiqamətdə inkişaf etdirilmiş suvarma infrastrukturunun rolu xüsusilə qeyd olunmalıdır. Müasir suvarma sistemlərinin tətbiqi məhsuldarlığın artırılmasına və torpaqdan səmərəli istifadəyə müsbət təsir göstərmişdir (Əhmədov, 2022).

Xızı rayonunda kənd təsərrüfatı sektoru kənd əhalisi üçün əsas məşğulluq və gəlir mənbəyi rolunu oynayır. Əkinçilik, heyvandarlıq, bağçılıq və digər bu qəbildən olan sahələr əsas fəaliyyət istiqamətləri kimi formalaşmışdır. Ənənəvi olaraq, Xızı rayonu taxılçılıq sahəsində önəmli mövqeyə sahibdir. Buğda və arpa kimi əsas taxıl növlərinin becərilməsi üçün mövcud torpaq və iqlim şəraiti optimal mühit təqdim edir. Taxılçılıq, həm daxili tələbatın ödənilməsi, həm də ixrac potensialı baxımından strateji əhəmiyyət daşıyır.

Bundan əlavə, rayon meyvəçilik və üzümçülük sahələrində də mühüm nailiyyətlər əldə etmişdir. Əsasən üzüm, nar, gavalı, ərik və alça kimi meyvə növləri geniş şəkildə becərilir. Xüsusilə üzümçülük sahəsində müəyyən ərazilər spesifik üstünlüklərə malikdir. Bu məhsullar həm yerli bazarda tələbatı qarşılayır, həm də xarici bazarlara ixrac olunaraq regionun iqtisadiyyatına töhfə verir.

Rayonda pomidor, xiyar, kartof, soğan, kələm və digər tərəvəz növləri yüksək keyfiyyətlə istehsal olunur ki, bu da ilk növbədə təbii-iqlim şəraiti ilə əlaqədardır. Müasir istixana təsərrüfatlarının yaradılması isə məhsulun davamlı istehsalını və bazara erkən çıxarılmasını təmin etməklə, bu sahənin dinamik inkişafına xidmət edir (Əliyev, 2023).

Bitkiçilik çərçivəsində çiçəkçilik sahəsinin inkişafı da qeyd olunmalıdır. Rayonun bəzi kəndlərində dekorativ bitkilər və müxtəlif çiçək növləri yetişdirilərək yerli bazarda müəyyən tələb formalaşdırmışdır.

Xızı rayonunun kənd təsərrüfatı strukturunda heyvandarlıq sektoru xüsusi yer tutur. Qoyunçuluq, maldarlıq və camışçılıq sahələri əsas fəaliyyət istiqamətləri olaraq inkişaf etdirilir. Heyvandarlıq sektoru ət və süd məhsullarının istehsalına yönəlmişdir. Son illərdə südçülük fəaliyyəti də nəzərəçarpacaq dərəcədə genişlənmiş, bu sahədə istehsal olunan məhsulların yerli bazarlarda payı artmışdır. Ət istehsalı istiqamətində həyata keçirilən tədbirlər isə həm daxili tələbatı ödəməkdə, həm də ixrac imkanlarını genişləndirməkdədir.

Rayonun Xəzər dənizi sahilində yerləşməsi balıqçılıq sahəsinin də inkişafını stimullaşdırmışdır. Dəniz məhsullarının ovlanması və bazara çıxarılması yerli iqtisadiyyat üçün əlavə gəlir mənbəyi olmaqla yanaşı, ixrac imkanlarını da artırır. Balıqçılıq məhsulları həm yerli istehlakçılar tərəfindən yüksək maraqla qarşılanır, həm də xarici bazarlara çıxış əldə edir (Hüseynova, 2021).

Azərbaycan Respublikasının mühüm iqtisadi bölgələrindən biri olan Abşeron rayonu, xüsusilə kənd təsərrüfatı sahəsindəki potensialı ilə diqqət çəkir. Rayon ərazisində suvarma sistemlərinin inkişaf etdirilməsi də məhsuldarlığa müsbət təsir göstərən əsas amillərdəndir. Mövcud irriqasiya infrastrukturu kənd təsərrüfatı sahəsində məhsul istehsalının artırılmasına mühüm töhfə verir.

Abşeron rayonu yalnız sənaye və xidmət sahələrində deyil, həm də kənd təsərrüfatında geniş potensiala malikdir. Əkinçilik fəaliyyətləri rayonda əsas sahələrdən biri kimi inkişaf etmişdir. Buğda və arpa kimi əsas taxıl növləri burada geniş şəkildə becərilir. Sözügedən taxıl məhsullarının bölgədə yayılmasının əsas səbəbi rayonun torpaq və iqlim şəraitinin bu bitkilərin yetişməsi üçün əlverişli olması ilə bağlıdır (Magerramova, 2022).

Rayonda kənd təsərrüfatı istehsalının mühüm istiqamətlərindən biri də bağçılıq və üzümçülükdür. Bağçılıqla yanaşı, Abşeronda tərəvəzçilik də inkişaf etmiş sahələrdən biridir. Pomidor, xiyar, kartof, kələm, soğan və sarımsaq kimi əsas tərəvəz növləri yüksək keyfiyyətlə yetişdirilir. Rayonda istixana təsərrüfatlarının qurulması bu məhsulların ilboyu davamlı istehsalını və bazara erkən çıxarılmasını təmin edir. Bu, həm yerli tələbatın ödənilməsi, həm də ixrac imkanlarının genişləndirilməsi baxımından əhəmiyyətlidir.

Heyvandarlıq sahəsi də Abşeron kənd təsərrüfatı strukturunda mühüm yer tutur. Rayonun kəndlərində qoyun, mal və camış kimi heyvanlar saxlanılmaqla əsasən ət, süd və digər heyvandarlıq məhsullarının istehsalı həyata keçirilir. Südçülük fəaliyyəti rayonda xüsusi əhəmiyyətə malikdir və bu sahənin inkişafı nəticəsində yerli bazarda süd məhsullarına olan tələbatın ödənilməsi mümkün olmuşdur.

Rayonun Xəzər dənizi sahilində yerləşməsi balıqçılıq fəaliyyətlərinin genişlənməsinə əlverişli imkanlar yaratmışdır. Xəzərin zəngin balıq ehtiyatları burada dəniz məhsullarının ovlanması və satışını iqtisadi baxımdan cəlbedici etmişdir. Ənənəvi kənd təsərrüfatı sahələrindən biri olan ipəkçilik də bəzi Abşeron kəndlərində yaşamaqdadır. Bunlarla yanaşı, rayonda çiçəkçilik və dekorativ bitkiçilik də mühüm inkişaf sahələri sırasındadır (Məhərrəmov, 2018).

Ümumilikdə, Abşeron rayonu kənd təsərrüfatının müxtəlif sahələrində – istər şəhərdaxili, istərsə də şəhər ətrafı ərazilərdə – yüksək iqtisadi potensiala malikdir. Burada istehsal olunan kənd təsərrüfatı məhsulları yalnız daxili bazarda deyil, həm də xarici bazarlarda rəqabət qabiliyyətli olmaqla, ölkə iqtisadiyyatına əlavə dəyər qatır.

Abşeron-Xızı iqtisadi rayonuna daxil olan Sumqayıt şəhəri kənd təsərrüfatı sahəsində müxtəlif istiqamətlərdə mühüm inkişaflara nail olmuşdur. Azərbaycan Respublikasının üçüncü böyük şəhəri kimi tanınan Sumqayıt şəhəri, əsasən sənaye mərkəzi kimi tanınsa da, şəhərin kənd təsərrüfatı sektoru da inkişaf tempini qoruyub saxlamaqdadır. Son illərdə şəhərin sürətli urbanizasiya və sənayeləşmə proseslərinə baxmayaraq, kənd təsərrüfatı fəaliyyətləri xüsusilə şəhərdən kənar ərazilərdə geniş yayılmış və əhəmiyyətli iqtisadi potensiala malik olmuşdur. Bu baxımdan, Sumqayıt şəhəri və onun ətrafındakı torpaq sahələri kənd təsərrüfatı üçün əlverişli coğrafi xüsusiyyətlər və iqlim şəraitinə sahibdir. Belə ki, bölgədə mövcud olan suvarma infrastrukturu məhsuldarlığın artırılması baxımından vacib rol oynayır. Bu infrastrukturun inkişafı kənd təsərrüfatı məhsullarının keyfiyyətinə müsbət təsir göstərərək, məhsul istehsalını artırmağa imkan yaradır.

Sumqayıt şəhərinin kənd təsərrüfatı fəaliyyətləri əsasən bağçılıq, tərəvəzçilik və heyvandarlıq sahələrini əhatə edir. Şəhərin sənaye mərkəzi kimi inkişafına baxmayaraq, kənd təsərrüfatının inkişafı əsasən şəhərin kənar bölgələrində, kəndlərdə özünü daha çox göstərir. Burada yaşayan əhali əsasən kənd təsərrüfatı ilə məşğul olur və bu sahə yerli iqtisadiyyatda mühüm rol oynayır. Bundan əlavə, şəhərin daxilində kənd təsərrüfatı məhsullarının işlənməsi və emalı ilə bağlı müəssisələr mövcuddur ki, bu da kənd təsərrüfatı məhsullarının daha yüksək əlavə dəyər əldə etməsinə səbəb olur. Beləliklə, kənd təsərrüfatı və sənaye sahələrinin qarşılıqlı əlaqəsi regionun ümumi iqtisadi inkişafına töhfə verir.

Bağçılıq şəhərin kənd təsərrüfatında əsas istiqamətlərdən biridir. Sumqayıtın ətrafındakı torpaq sahələrində müxtəlif növ meyvə bağları salınıb və bu bağlarda əsasən üzüm, alma, ərik, alça, gavalı, nar və digər meyvələr yetişdirilir. Üzümçülük bu bölgədə xüsusi inkişaf edib və məhsullar həm daxili bazarda tələbatı ödəyir, həm də xarici bazarlara ixrac olunur. Meyvə bağlarının geniş yayılması ərazinin iqlim və torpaq xüsusiyyətlərinin kənd təsərrüfatı üçün əlverişli olduğunu təsdiqləyir. Üstəlik, bağçılıq məhsullarının istehsalı yerli əhalinin məşğulluq səviyyəsinin artırılmasına da müsbət təsir göstərir.

Tərəvəzçilik Sumqayıtın kənd təsərrüfatı sahəsində mühüm rol oynayır. Burada pomidor, xiyar, kartof, kələm, soğan, sarımsaq və digər tərəvəz növləri geniş şəkildə yetişdirilir. Son illərdə istixana təsərrüfatlarının yaradılması tərəvəz istehsalını daha da artırmışdır. Müasir istixanalarda tərəvəzlərin yetişdirilməsi məhsulun keyfiyyətini yüksəltməklə yanaşı, məhsulun bazara daha erkən çıxarılmasına şərait yaradır. Bu, həm daxili bazar üçün ərzaq təminatını gücləndirir, həm də ixrac potensialını artırır. İstixana təsərrüfatlarının tətbiqi kənd təsərrüfatında məhsuldarlığın artırılması və innovativ texnologiyaların tətbiqi üçün mühüm vasitədir.

Çiçəkçilik və dekorativ bitkilərin istehsalı da Sumqayıtın kənd təsərrüfatı sektorunda son dövrlərdə əhəmiyyətli dərəcədə genişlənmiş sahələrdəndir. Bu məhsullar həm yerli bazarlarda, həm də ətraf rayonlara və hətta xarici ölkələrə ixrac olunmaqla kənd təsərrüfatının müxtəlifliyini artırır və əlavə gəlir mənbəyi kimi çıxış edir.

Heyvandarlıq da Sumqayıtın kənd təsərrüfatı sektorunda vacib sahələrdən biridir. Ətraf kəndlərdə qoyun, inək, camış və digər ev heyvanlarının saxlanılması geniş yayılıb. Heyvandarlıq fəaliyyətləri əsasən süd, ət, yumurta və digər məhsulların istehsalına yönəlib (Ministry of Agriculture of Azerbaijan, 2023).

Sumqayıtın Xəzər dənizi sahilində yerləşməsi balıqçılıq sektorunun da inkişafına şərait yaratmışdır. Xüsusilə Sumqayıt körfəzi dəniz məhsullarının istehsalı və emalı üçün mühüm mərkəz kimi çıxış edir. Balıqçılıq fəaliyyəti yerli bazarın tələbatını ödəməklə yanaşı, ölkənin ümumi iqtisadiyyatına da mühüm töhfələr verir.

Bütün bunların nəticəsində Sumqayıt şəhəri kənd təsərrüfatı sahəsində sənayeləşmə və urbanizasiya təzyiqlərinə baxmayaraq, kənd təsərrüfatının müxtəlif istiqamətlərində özünü inkişaf etdirmiş və regionun sosial-iqtisadi inkişafında önəmli rol oynayan sektor kimi qalmaqdadır.

## Nəticə

Abşeron-Xızı iqtisadi rayonunda kənd təsərrüfatının ərazi üzrə təşkili proseslərində müşahidə olunan meyilləri tədqiq edərkən gəldiyimiz nəticələr, verilən təkliflər aşağıdakı kimi ümumiləşdirilə bilər:

- Məhsuldarlığı artırmaq və torpağın səmərəli istifadəsini təmin etmək məqsədilə ərazinin torpaq və iqlim xüsusiyyətlərinə uyğun kənd təsərrüfatı məhsullarının seçilməsi üçün detallı torpaq-kənd təsərrüfatı xəritələrinin hazırlanması;
- Kənd təsərrüfatı torpaqlarının suvarma sistemləri ilə tam təchiz olunması üçün yeni suvarma infrastrukturunun yaradılması və mövcud sistemlərin yenilənməsi (Statistikaya əsasən, yaxşı suvarma sistemləri məhsuldarlığı 30-40% artırır.);
- Ərazidə müasir kənd təsərrüfatı texnologiyalarının tətbiqi, o cümlədən damcı üsulu ilə suvarma və əkin texnikasının modernləşdirilməsi;
- Heyvandarlıq təsərrüfatlarının müasirləşdirilməsi və keyfiyyətli yem bazasının yaradılması;
- Ərazi üzrə kiçik və orta fermer təsərrüfatlarının inkişafı üçün maliyyə dəstəyi və kredit mexanizmlərinin təkmilləşdirilməsi;
- İstixana təsərrüfatlarının genişləndirilməsi və müasir texnologiyalarla təchiz edilməsi;
- Kənd təsərrüfatı məhsullarının emalı sahələrinin yaradılması və mövcud müəssisələrin gücləndirilməsi;
- Ərazidə kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının artırılması üçün logistik infrastrukturun təkmilləşdirilməsi və sertifikatlaşdırma sistemlərinin gücləndirilməsi;
- Məhsuldarlığın artırılması və istehsalın davamlılığının təmin olunması üçün əsas şərt kimi kənd təsərrüfatı istehsalında ənənəvi üsulların müasir innovativ texnologiyalarla əvəz edilməsi;
- Qadınların və gənclərin kənd təsərrüfatına cəlb olunması üçün xüsusi proqramların hazırlanması və həyata keçirilməsi;
- Ərazi üzrə kənd təsərrüfatının inkişafı məqsədilə regional iqtisadiyyatla əlaqələndirilmiş kompleks planlaşdırma və idarəetmə sistemi tətbiq edilməsi;
- Müasir suvarma sistemlərinin tətbiqi nəticəsində əkin sahələrinin məhsuldarlığı əhəmiyyətli dərəcədə yüksələcək və su resurslarının istifadəsində səmərəlilik artacaq;
- İstixana təsərrüfatlarının inkişafı mövsüm xaricində də məhsul istehsalına imkan verəcək, ərzaq təhlükəsizliyini gücləndirəcək;

## Ədəbiyyat

1. Azərbaycan Milli Ensiklopediyası. (2009). *Abşeron iqtisadi rayonu*. Bakı.
2. Azərbaycan Respublikası Abşeron Rayon İcra Hakimiyyəti. (2007–2019). *Kənd təsərrüfatı üzrə statistik göstəricilər*.

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2024). *2024-cü ilin kənd təsərrüfatı üzrə illik hesabatı*.
4. Azərbaycan Respublikasının Coğrafiyası. (2015). (III cild). Bakı.
5. Əhmədov, R. (2022). *Abşeron-Xızı iqtisadi rayonunda kənd təsərrüfatı zonalaşması*. BDU nəşriyyatı.
6. Əliyev, E. (2023). Abşeron-Xızı iqtisadi rayonunda bağçılıq və tərəvəzçilik sahəsinin inkişafı. *Müasir Kənd Təsərrüfatı*.
7. Hüseynova, L. (2021). *Abşeron yarımadasında suvarma sistemlərinin inkişafı*. AKTN vəsaiti.
8. Magerramova, I. (2022). Organizaciâ AHP v ékonomičeskom rajone Abšeron-Hyzy. Agrobzor.
9. Məhərrəmov, V. (2018). *Abşeron iqtisadi rayonunda kənd təsərrüfatının mövcud vəziyyəti və görüləcək işlər*.
10. Ministry of Agriculture of Azerbaijan. (2023). *Zoning and land-use in Absheron Khizi Economic Region*.

Daxil oldu: 06.02.2025
Qəbul edildi: 10.04.2025